BQXK

# OTUZ İL ƏRZİNDƏ AZƏRBAYCANDA HƏYATA KEÇİRİLMİŞ HUMANİTAR FƏALİYYƏT HAQQINDA



Beynəlxalq Qızıl Xaç Komitəsi 30 ildən artıq ölkədəki humanitar mənzərənin bir parçası olmuş, insan ləyaqətini və uzunmüddətli dayanıqlılığı hər şeydən öndə tutaraq münaqişədən zərər çəkmiş insanların artan ehtiyaclarını qarşılamışdır. Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycandakı nümayəndəliyinin bağlanması yeni mərhələyə keçid və keçmişə nəzər salmaq baxımından əlamətdar andır.

BQXK humanitar prinsipləri, o cümlədən humanizmi, neytrallığı, qərəzsizliyi və müstəqilliyi əldə rəhbər turaraq və Cenevrə Konvensiyalarının ona həvalə etdiyi unikal mandatdan çıxış edərək münaqişə və bərpa dövrlərində Azərbaycanda fəaliyyət göstərmişdir. Onun humanitar fəaliyyəti bilavasitə münaqişədən zərər çəkmiş icmalar, hakimiyyət orqanları və yerli tərəfdaşlarla qurulmuş əlaqə və ümumi anlaşmaya dayanırdı.

Təşkilat Azərbaycandakı fəaliyyətini yekunlaşdırsa da, bu illər ərzində böyük əmək sərf edilərək qurulmuş münasibətlər, sistemlər və ortaq təcrübə humanitar sahəni və bizim hakimiyyət orqanları və Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə gələcək əməkdaşlığımızı istiqamətləndirəcək.

## ÖN SÖZ

Otuz ildən artıq davam edən humanitar fəaliyyətdən sonra BQXK-nın Azərbaycandakı nümayəndəliyini bağlayırıq və mən bu münasibətlə ölkədəki fəaliyyətimizin əsas məqamlarını və hələ uzun müddət öz təsirini göstərəcək bəzi töhfələrini qeyd etmək istərdim.

Bizim əməliyyatlarımız dəyişən ehtiyaclar və mövcud reallıqla ayaqlaşaraq inkişaf etmişdir. Fəaliyyətimizin ilk illərində biz münaqişənin yaratdığı humanitar problemlərə cavab olaraq həyati əhəmiyyətli yardım işləri görür, məcburi köçkünləri qida və digər mallarla təmin edir, tibbi müəssisələrə və ortopedik mərkəzlərə dəstək göstərir, ehtiyac içində olan insanlara kömək edirdik. Bununla belə, bizim töhfəmizin böyük hissəsini bu yardımdan sonra gələn daha səssiz, uzunmüddətli perspektivə hesablanmış fəaliyyətimiz təşkil etdi.

Vaxt keçdikcə BQXK yerli qurumlarla tərəfdaşlıq edərək əsas diqqətini ölkədəki potensialın artırılmasına və dayanıqlı həll yollarının qurulmasına yönəltdi. Biz fiziki reabilitasiya xidmətlərinin inkişafını dəstəkləyir, ucqar ərazilərdə içməli su təminatının yaxşılaşdırılmasına kömək edir, münaqişənin təsirinə məruz qalmış ərazilərdə ilkin səhiyyə xidməti infrastrukturunun müasir tələblərə uyğunlaşdırılmasına töhfə verirdik. Həmçinin biz iqtisadi təhlükəsizlik proqramları həyata keçirərək imkansız ailələrin dolanışıqlarını yaxşılaşdırmalarına və maddi müstəqilliklərini bərpa etmələrinə şərait yaradırdıq.

Fəaliyyətimizin ən əhəmiyyətli aspektlərindən biri itkin düşmüş şəxslərin taleyinə aydınlıq gətirilməsinə töhfə vermək idi. Biz Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası və itkin ailələri ilə sıx əməkdaşlıq edərək məlumat və bioloji istinad nümunələrinin toplanılması proseslərinə şərait yaradır, itkin düşmüş şəxslərin ailələrinə dəstək mexanizmlərini genişləndirir və gələcəkdə insan qalıqlarının eyniləşdirilməsi işlərinin bünövrəsini qoymağa kömək edirdik.

1992-ci ildən başlayaraq biz yüzlərlə saxlanılan şəxsə baş çəkərək onlarla rəftarı və saxlanıldıqları şəraiti qiymətləndirir, ailələri ilə əlaqələrini bərpa etmələri və qorumalarına yardımçı olurduq. Bu ziyarətlərlə əlaqədar müşahidələrimizi və tövsiyələrimizi onları nəzarətdə saxlayan hakimiyyət orqanları ilə bölüşürdük.

Həmçinin biz beynəlxalq humanitar hüququn (BHH) hərbi təlim və akademik proqrama inteqrasiyasını dəstəkləyir, humanitar qaydalara uyğun hüquqi konsepsiyaları təbliğ etmək üçün hakimiyyət orqanları ilə sıx əməkdaşlıq edirdik.

Bütün bunlar Azərbaycandakı icmalar və təsisatlarla qurduğumuz əlaqələr, Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə əməkdaşlığımız və tərəfdaşlarımızın və əməkdaşlarımızın peşəkarlığı olmadan mümkün olmazdı.

Biz öz humanitar mandatımızı icra etmək öhdəliyimizə sadiq olaraq qalırıq və Azərbaycan Respublikası ilə əlaqələrimizi yeni mərhələyə keçirməyə hazırıq.

Bu yolu bizimlə birlikdə keçdiyiniz üçün sizə təşəkkür edirik.

**DRAQANA KOİÇ**

**AZƏRBAYCANDAKI NÜMAYƏNDƏLİYİN BAŞÇISI**

## GÖZLƏMƏKLƏ KEÇƏN İLLƏR: AZƏRBAYCANDA İTKİN DÜŞMÜŞ ŞƏXSLƏRİN AİLƏLƏRİNƏ DƏSTƏK

30 ildən çoxdur ki, Azərbaycanda ailələr Qarabağ münaqişəsi zamanı itkin düşmüş yaxınlarının taleyindən xəbərsizliyin gətirdiyi namüəyyənlik içində yaşayırlar. BQXK 90-cı illərdən başlayaraq dövlət qurumları və icmalarla birlikdə bu problemin həlli üçün çalışmışdır. İndiyədək biz itkin düşmüş şəxslərin, təxminən 4 000 iş olmaqla, səkkiz siyahısını Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasına təqdim etmişik. Təcili axtarış təşəbbüsü kimi başlayan bu fəaliyyət hüquqi, məhkəmə ekspertizası və psixososial dəstəyi özündə ehtiva edən kompleks əməliyyata çevrildi.



BQXK ailələrin ifadələrinə əsasən itkin düşmüş şəxslərin adlarını toplamağa başlayıb ümumi siyahı tərtib etdi və bu, Azərbaycanın dövlət qurumları ilə əməkdaşlığa şərait yaratdı. Ən son siyahı 2024-cü ilin aprel ayında təqdim olundu. Əlavə olaraq, bizim 2012-ci ildə başlamış Sirdaşlar Proqramımız ailələri zəruri psixososial yardım və inzibati dəstəklə təmin etdi. Bu proqram ailə ziyarətləri və sirdaşların qrup seansları vasitəsilə 3000-dən çox ailəni əhatə etdi.

İtkin ailələrinin öz doğmalarının taleyini bilmək hüququ var. Bunu nəzərə alaraq, biz insan qalıqlarının eyniləşdirilməsi üçün Dövlət Komissiyasının və digər qurumların məhkəmə ekspertizası potensiallarını artırmalarına kömək etməyə xüsusi diqqət ayırdıq. 2008 və 2024-cü illər arasında biz 3 879 itkin şəxsin ailəsindən ante mortem məlumatlar topladıq və 2022-ci ilədək 3 492 ailədən 10 800 bioloji istinad nümunəsi alındı. Dövlət laboratoriyası insan qalıqlarını eyniləşdirmək üçün DNT analizi həyata keçirərkən, BQXK müxtəlif qurumlardan olan 300-dən çox mütəxəssis üçün məhkəmə ekspertizası üzrə çoxlu sayda təlimlər təşkil etdi. İnsan qalıqlarının qabaqcıl beynəlxalq təcrübələrə uyğun götürülməsində sahə səfərləri və ekshumasiya işlərinə dəstək də vacib rol oynadı.

## BEYNƏLXALQ HUMANİTAR HÜQUQUN TƏBLİĞİ VƏ İNTEQRASİYASI

Biz dövlət qurumları ilə tərəfdaşlıq edərək beynəlxalq humanitar hüququn hərbi, hüquqi, akademik və ictimai çevrələrdə başa düşülməsi və tətbiqi üçün dayanıqlı bünövrənin qurulmasına töhfə verdik.

Müdafiə Nazirliyi və Daxili İşlər Nazirliyi ilə tərəfdaşlıq əsasında on minlərlə əməkdaş BHH və ictimai təhlükəsizliyin beynəlxalq standartları mövzularında əhatəli təlimlərdə iştirak etdi. Bu təşəbbüslər BHH-nin milli doktrinaya, təlim proqramlarına və hüquq-mühafizə praktikasına inteqrasiyası yolu ilə institusional səviyyədə qəbul edilməsində çox vacib rol oynadı. Humanitar normaların silahlı qüvvələrin əməliyyat və strateji səviyyələrinə inteqrasiyasının ümumi maraq mövzusu olmasının təsdiqi kimi, Azərbaycanın hərbi qulluqçuları və kursantları mütəmadi keçirilən BHH brifinqlərində və təlimat sessiyalarında iştirak etdilər.

Ombudsman Aparatı ilə tərəfdaşlıq çərçivəsində, BHH-nin milli implementasiyasını artırmaq məqsədilə silsilə seminarlar təşkil olundu. Dövlət qurumlarından 300 mütəxəssisin iştirak etdiyi, potensialın artırılmasına yönəlmiş bu tədbirlər BHH-nin prinsipləri haqqında təsəvvürləri genişləndirməklə yanaşı onların milli səviyyədə effektiv tətbiqini təbliğ edirdi.



Hərbi əməliyyatların həyata keçirilməsinə dair beynəlxalq qaydalara həsr olunmuş və 100-ə yaxın yüksək rütbəli hərbi qulluqçunun iştirak etdiyi qlobal tədbir olan 17-ci Seminara (SWIRMO) Azərbaycan tərəfindən Bakıda yüksək səviyyədə ev sahibliyi edilməsi bu tərəfdaşlığın inkişafında vacib mərhələ idi. Tədbir Azərbaycanın BHH çərçivəsində dialoqun irəli aparılmasına və müasir hərbi kontekstlərdə tətbiqinə verilən töhfədə aktiv rolunu nümayiş etdirdi.

Bizim akademik və hüquqi sektorla əməkdaşlığımız da milli qurumlarla sıx koordinasiya şəraitində inkişaf etdirilmişdir. 5000-dən çox tələbə, universitet müəllimi və hüquq mütəxəssisi BHH proqramlarında, o cümlədən qonaq mühazirələrində, məhkəmə simulyasiyası müsabiqələrində və tanışlıq səfərlərində iştirak etdi. 1500-dən çox hüquq mütəxəssisi (hakimlər, prokurorlar və vəkillər) BHH-nin məhkəmə praktikasında və hüquq tədrisində tətbiqini artırmaq üçün nəzərdə tutulan seminar və təqdimatlarda iştirak etdi.

Bundan əlavə, BQXK media qurumları ilə tərəfdaşlıq edərək öz mandatı və BHH-nin təməl prinsipləri haqqında jurnalistlər üçün maarifləndirici tədbirlər həyata keçirdi. Bu təşəbbüslər ictimai diskursda və kütləvi informasiya vasitələri arasında humanitar hüququn daha dərindən başa düşülməsinə töhfə verdi.

## HƏBS ŞƏRAİTİNDƏ HUMANİTAR STANDARTLARIN TƏMİN EDİLMƏSİ

1992-ci ildə Azərbaycan və Ermənistan arasında beynəlxalq silahlı münaqişə başladıqdan sonra BQXK Cenevrə Konvensiyaları ilə himayə olunan insanlar üçün saxlama yerlərində həyata keçirilən tədbirlərdə həyati əhəmiyyətli humanitar rol oynayırdı. Biz neytral və müstəqil mövqeyimizdən çıxış edərək hərbi əsirlərin, internə edilmiş mülki şəxslərin vətənlərinə qaytarılmasına və köçürülməsinə, proses boyu onlarla insani rəftarın və ailələri ilə əlaqələrinin qorunmasının təmin edilməsinə şərait yaradırdıq. 1992-ci ildən başlayaraq biz tərəflər arasında məlumat mübadiləsinə dəstək göstərir, yüzlərlə şəxsin azad olunmasına və mübadilə edilməsinə şərait yaradırdıq. Tərəflər BQXK-nın neytral vasitəçi rolunu qəbul edir və qiymətləndirirdi.

Saxlama yerlərindəki fəaliyyətimizin əsas komponenti Ədliyyə Nazirliyi ilə tərəfdaşlıq çərçivəsində penitensiar sistem daxilində həyata keçirdiyimiz ilk vərəmə nəzarət proqramı oldu. Bu proqram 1995-ci ildən 2010-cu ilədək vərəmdən ölüm hallarının sayının 105 dəfə azalmasına töhfə verdi.

Penitensiar xidmətin müalicə müəssisəsində vərəmlə mübarizə aparmaq üçün eksperimental təşəbbüs olaraq başlanılan proqram dövlət səviyyəsində xəstəliyə nəzarət modeli olaraq tanındı. Biz Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) tövsiyə etdiyi Birbaşa Nəzarət Altında Müalicə, Qısamüddətli strategiyanı təqdim etdik və onun tam həyata keçirilməsini təmin etmək üçün dövlət qurumları ilə sıx əməkdaşlıq etdik. 1998-ci ildə Ədliyyə Nazirliyi, Səhiyyə Nazirliyi və BQXK

arasında imzalanan və vərəmə nəzarət üzrə dövlət öhdəçiliyini təsbit edən üçtərəfli saziş buna qədər bu sahədə həyata keçirilən fəaliyyətdə dönüş nöqtəsi oldu. Nəticədə 3 saylı cəzaçəkmə müəssisəsi vərəm üzrə ixtisaslaşmış müəssisəyə çevrildi. Müalicə olunan pasiyentlərin sayı dörd dəfə artdı, diaqnostika və laboratoriya şəraiti əhəmiyyətli dərəcədə yaxşılaşdı. 2010-cu ildə proqram rəsmi şəkildə dövlətə təhvil verilərkən 2700-dən çox məhbus müalicə olunmuşdu. BQXK sonrakı bir neçə il ərzində, monitorinq və təlim baxımından zəruri dəstəyin göstərilməsi daxil olmaqla, tibbi ləvazimatlarla təmin etdi.



Paralel olaraq, BQXK münaqişə ilə əlaqədar saxlanılan şəxslərə baş çəkməyə çalışır, saxlama yerlərini 869 dəfə ziyarət edərək yaşayış şəraitini və saxlanılan şəxslərlə rəftarı, onların tibbi xidmətlərdən yararlanmaq və ailələri ilə soraqlaşmaq imkanlarını qiymətləndirirdi. Münaqişə ilə əlaqədar saxlanılan şəxslər bu şəkildə müntəzəm olaraq ziyarət edilirdilər. Biz eyni zamanda standart iş prosedurlarımıza uyğun olaraq humanitar problemləri aradan qaldırmaq məqsədilə penitensiar xidmətin məsul əməkdaşları ilə ikitərəfli və konfidensial dialoq aparırdıq. Bakıdakı nümayəndəlik bağlansa da, BQXK BHH-nın himayəsi altında olan şəxsləri ziyarət etmək və bu sahədəki mandatını yerinə yetirmək öhdəliyinə sadiq olaraq qalır.

Biz, 2000-ci ildə imzalanmış Saxlama yerlərinə ziyarət haqqında Saziş vasitəsilə, humanitar fəaliyyətlərimizi, münaqişə ilə əlaqədar saxlanılan şəxslərdən əlavə, Azərbaycanda azadlıqdan məhrum olunmuş bütün şəxslərə şamil edirdik.  Biz hakimiyyət orqanları ilə, o cümlədən Dövlət Təhlükəsizliyi Xidməti, ədliyyə, daxili işlər, müdafiə və səhiyyə nazirlikləri ilə sıx əməkdaşlıq edərək həssas təbəqədən olan dustaqların vəziyyətinin monitorinqini həyata keçirir, onlara dəstək göstərirdik. Bu illər ərzində BQXK penitensiar müəssisələrdə 1376 ziyarət həyata keçirmiş, ümumi hüquq çərçivəsində tutulan 2 261 şəxsin işini fərdi qaydada təqib etmişdir. Biz yanaşmamızda sistemli və fərdi iş təqibi arasında balans yaradaraq, humanitar ehtiyacları hər şeydən öndə tutur, beynəlxalq standartlara əsasən dustaqların zəruri xidmətlərdən yararlana bilməsini təbliğ edirdik.

BQXK-nın saxlanılan şəxslər üçün səhiyyə sahəsindəki fəaliyyətlərinin daha bir vacib komponenti psixi sağlamlıq və psixososial dəstək üzrə pilot layihə oldu (2018-2022). Bu layihə Müalicə Mərkəzi ilə tərəfdaşlıq çərçivəsində işlənib hazırlanmışdı və penitensiar xidmət işçilərinin psixi sağlamlıq problemləri olan saxlanılan şəxslərlə işləmək potensialını artırmaq məqsədi daşıyırdı. Bu təşəbbüs saxlama yerlərində dayanıqlı psixoloji dəstəyə dəyərli töhfə vermək baxımından xüsusi əhəmiyyətə malik idi.

## YERLİ HUMANİTAR CAVAB TƏDBİRLƏRİNİN GÜCLƏNDİRİLMƏSİ: AZƏRBAYCAN QIZIL AYPARA CƏMİYYƏTİ İLƏ TƏRƏFDAŞLIQ

Biz 1992-ci ildən Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə (AzQAC) güclü tərəfdaşlıq münasibətlərində olmuşuq və ehtiyac duyulan humanitar yardımın çatdırılması istiqamətində sıx əməkdaşlıq etmişik.

Bu tərəfdaşlıq 1992-ci ildən 2025-ci ilədək humanitar yardımın paylanılmasında, məcburi köçkünlərə dəstək göstərilməsində və ilk yardım və tibbi xidmətin təmin olunmasında vacib rol



oynamışdır. 2000-ci illərdən başlayaraq bu tərəfdaşlıq genişlənərək minalara dair maarifləndirmə, təhsil şəraitinin yaradılması, su və gigiyena, münaqişədən zərər çəkmiş insanlara psixososial dəstək və həssas icmalara maddi yardımın göstərilməsi kimi proqramları, AzQAC könüllüləri birlikdə işləməyi və humanitar prinsiplərə hörmətin təbliğini özündə ehtiva etmişdir.

AzQAC-ın fövqəladə hallara hazırlığının artırılmasında BQXK-nın göstərdiyi böyük dəstək milli cəmiyyətə rayon səviyyəsində yerindəcə ilkin cavab tədbirləri görmək üçün təlimatlandırılmış multi-sektoral könüllülər qrupu olan Fövqəladə Mobil Könüllü Dəstələr (FMKD-lər) təşkil etmək və onların fəaliyyətinin davam etdirmək imkanı verdi.

Biz 2021-ci ildən 2024-cü ilədək Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası (Federasiya) ilə tərəfdaşlıq çərçivəsində AzQAC-ın institusional inkişafı üçün çalışdıq. Bu zaman AzQAC-ın fəaliyyət nəticələrini artırması üçün onun əsas sistemlərinə xüsusi diqqət ayırdıq.

## MÜNAQİŞƏDƏN ZƏRƏR ÇƏKMİŞ ƏRAZİLƏRDƏ YAŞAYAN İNSANLARA DƏSTƏK

### PSİXOLOJİ VƏ PSİXOSOSİAL DƏSTƏYİN GÖSTƏRİLMƏSİ

2000-ci illərin əvvəllərində BQXK münaqişənin buraxdığı görünməz yaraları nəzərə alaraq Psixi sağlamlıq və psixososial dəstək (PSPSD) proqramına start verdi. İlkin məqsəd psixososial qiymətləndirmələr həyata keçirməklə, eləcə də davam edən namüəyyənlik və kədəri dəf edə bilmələrinə kömək etmək üçün sirdaş şəbəkələri və məsləhətləşmə vasitəsilə itkin düşmüş şəxslərin ailələrinə dəstək olmaq idi. Ehtiyaclar şaxələndikcə proqramın əhatə dairəsi münaqişədən zərər çəkmiş icmalara, mina qurbanlarına və onların ailələrinə, Suriya və İraqda münaqişə zonalarından repatriasiya olunmuş şəxslərə (xüsusilə qadınlara və uşaqlara), eləcə də azadlıqdan məhrum edilmiş şəxslərədək genişləndi.



Getdikcə PSPSD fəaliyyətləri birbaşa xidmətlərin göstərilməsini aşaraq genişmiqyaslı potensialartırma və institusional dəstək təşəbbüslərini də özündə ehtiva etməyə başladı. İcmaəsaslı psixi sağlamlıq təşəbbüsləri maarifləndirmə sessiyaları, sosiallaşma tədbirləri və məktəblilər üçün “Mənim haqqımda kitab” kimi alətlərdən istifadə etməklə psixososial dəstək vasitəsilə psixoloji möhkəmliyi təbliğ edirdi. Eyni zamanda, kəskin və ya kompleks psixoloji dəstəyə ehtiyacı olanlara fərdi terapiya, qrup dəstəyi və kliniki xidmətlər üçün göndərişlər daxil olmaqla məqsədyönlü psixoloji yardım göstərilirdi.

Təkcə 2012-2017-i illər arasında itkin düşmüş şəxslərin ailələri üçün 7000-ə yaxın qrup seansı və 1000-dən çox ev ziyarəti həyata keçirilmişdir. 2018-ci ildən başlayaraq 300 mütəxəssis, o cümlədən məxsusi olaraq repatriasiya olunmuş uşaqlara və qadınlara yardım etmək üçün 151 mütəxəssis təlimdə iştirak etdi. 100-dən çox müəllim, tibb işçisi, könüllü uzunmüddətli psixososial təşəbbüslərdə iştirak etdi.

PSPSD proqramının təsiri həm rəqəmlərdə, həm də tədbirlərin hədəfində öz əksini tapır. 15 000-dən çox məhbus psixoloji müayinədən keçmiş, münaqişədən zərər çəkmiş ərazilərdə yüzlərlə insan (o cümlədən mina qurbanları) birbaşa psixoloji dəstək almış və bütün ölkədə 5000-dən çox psixoloji seans keçirilmişdir. Ən əsası, BQXK AzQAC, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Elm və Təhsil Nazirliyi və Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası kimi ölkədəki tərəfdaşlarla sıx əməkdaşlıq edərək bu proqrama sahib çıxılmasını və onun dayanıqlı olmasını prioritetə çevirdi. Bizim PSPSD proqramımız özündən sonra fövqəladə hallarda təməl psixososial dəstəkdən tutmuş institusional təkmilləşməyədək artırılmış potensial, təlim keçmiş mütəxəssislər və bütün Azərbaycanda daha möhkəm yardım şəbəkəsi qoyur.

## TƏHLÜKƏSİZ DAVRANIŞIN TƏBLİĞİ VƏ SİLAHLARIN TƏHLÜKƏ YARATDIĞI ƏRAZİLƏRDƏ ZƏRƏR ÇƏKMİŞ ŞƏXSLƏRƏ DƏSTƏK

Azərbaycan keçmiş döyüş və istehkam əraziləri insanların həyat və dolanışığı üçün risk yaradan minalar və müharibənin partlayıcı qalıqları (MPQ) ilə ən çox çirklənmiş ölkələr sırasındadır. BQXK ölkədəki tərəfdaşları ilə sıx əməkdaşlıq edərək bu risklərin azaldılması və zərər çəkən icmalara dəstək üçün kompleks cavab tədbirləri üzərində işləmişdir. Bizim əsas işimiz preventiv tədbirlər, potensialartırma və mina risklərinə dair maarifləndirmə və psixi sağlamlıq xidmətləri vasitəsilə mərkəzində zərər çəkmiş şəxslərin dayandığı dəstəklərin vəhdətindən ibarət idi.

1990-cı illərdən başlayaraq BQXK Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik (ANAMA) və AzQAC ilə sıx əməkdaşlıq şəraitində risklərə dair maarifləndirmə və təhlükəsiz davranış (RASB) tədbirlərinə fəal şəkildə töhfə vermişdir. ANAMA və AzQAC ilə tərəfdaşlıq münaqişə zamanı və ondan sonra minaların təsirinə məruz qalmış ərazilərdə mülki əhalini qorumaq ehtiyacından ortaya çıxmış və illərlə davam edən əlaqələndirilmiş humanitarməqsədli minatəmizləmə fəaliyyətinin bünövrəsini qoymuşdur.



Təhlükəsiz davranışın təbliği döyüş əməliyyatları zamanı və ondan sonra, xüsusilə də 2016 və 2020-ci illərdə baş verən döyüş əməliyyatlarından sonra əsas prioritetlərimizdən biri olaraq qaldı. Cəbhəyə yaxın kəndlərdə yaşayan ailələrin üzləşdiyi riskləri azaltmaq üçün görülən preventiv tədbirlərə sığınacaqların bərpası, qoruyucu divarların inşası və partlayış təhlükəsinə məruz qalmaq riskini azaltmaq üçün evlərin möhkəmləndirilməsi daxil idi.

2022 və 2025-ci illər arasında biz təlim keçmiş 300 AzQAC könüllüsü ilə birlikdə zərər çəkmiş icmalarda 100 000 nəfərə həyati əhəmiyyətli məlumat çatdırdıq. Bu səylərin davamı olaraq biz, həmçinin 19 mina qurbanına RASB fasilitatoru olmaq üçün təlim keçdik. Öz həyat təcrübələrindən çıxış edən bu şəxslər AzQAC-a könüllülər olaraq inteqrasiya edildilər və keçmiş təmas xətti

yaxınlığındakı ərazilərdə və məcburi köçkün qəsəbələrində 1460-dan çox maarifləndirmə sessiyası həyata keçirdilər. 4000-dən çox insanın iştirak etdiyi bu sessiyalarda həyati əhəmiyyətli məlumatlar çatdırılır, praktiki təhlükəsizlik qaydaları öyrədilirdi. Dayanıqlılığı təmin etmək məqsədilə bu fasilitatorlar 2024-cü ilin avqust ayında AzQAC-ın könüllülər şəbəkəsinə rəsmi olaraq inteqrasiya edilərək risklərə dair maarifləndirmə ilə yerli icmalar arasında körpü yaratmış, təhlükəsizliyə dair maarifləndirmə prosesinə sahiblik hissini və onun davamlılığını təbliğ etmişdir.

Milli minatəmizləmə təşəbbüslərinə dəstək olaraq, BQXK ANAMA-nı vacib avadanlıqlarla təmin etmişdir. Bura 4500 xəbərdarlıq nişanı, 100 böyük RASB bilbordu, mina təmizləyən briqadalar üçün fərdi mühafizə vasitələri və əməliyyat planlama işlərinə və məlumat idarəçiliyinə dəstək üçün informasiya texnologiyaları avadanlığı daxildir.

Biz inanırıq ki, bu illər ərzində qurulmuş sistemlər və potensial bütün ölkədə münaqişədən zərər çəkmiş ərazilərdə təhlükəsizliyi, bərpanı və dayanıqlılığı təbliğ etmək üçün həyata keçirilməkdə olan səylərə dəstək olacaq.

## SU TƏCHİZATININ YAXŞILAŞDIRILMASI

BQXK 2006-cı ildən Azərbaycanda yerli icmalara su təchizatının yaxşılaşdırılmasında sistematik şəkildə dəstək göstərmişdir. Biz münaqişənin ziyan vurduğu vacib qurğuların təmiri və müasirləşdirilməsinə töhfə verir, yerli mütəxəssislərin su təchizatı şəbəkəsinə xidmət etmək imkanlarını artırır, eləcə də yerli idarələrlə sıx əməkdaşlıq edərək uzunmüddətli dayanıqlılıq yaradırdıq.




2008-ci ildən 2022-ci ilədək Su və yaşam Proqramının əməkdaşları münaqişədən zərər çəkmiş ərazilərdə yaşayan 50 000-dən çox insanın faydalandığı 100-dən çox su layihəsi həyata keçirmişdir. Layihələrin icrasına yerli su təchizatı idarələri üçün təlim və suya qənaət mövzusunda icma üçün maarifləndirmə təşəbbüsləri daxil idi.

Bu tədbirlər 2020-ci ilin payızında baş vermiş döyüş əməliyyatlarından sonra həyata keçirilmiş, tərəfimizdən dövlət idarələrinə 47,3 km alüminium kabel, 220 rele qurğusu və 130 kontaktor verilmişdir. Bərpa olunmuş elektrik enerjisi şəbəkələri və təmir olunmuş quyular 6000-dən çox insanı həm suvarma, həm də içməli su ilə təmin etmişdir.

Həmçinin biz ekoloji təmiz və resurslara qənaət edən yanaşmaları təbliğ etmək məqsədilə, günəş panellərinin quraşdırılması, yağış sularının toplanılması və yerüstü kanalların quyulardan sahələrə çəkilən borularla əvəz edilməsi kimi pilot layihələr həyata keçirmişik.

2021-ci ildə Su və yaşam Proqramının əməkdaşları BQXK-nın Təhsil Proqramı çərçivəsində Elm və Təhsil Nazirliyi ilə tərəfdaşlıq qurdu. Münaqişənin təsirlərinə məruz qalmış təhsil müəssisələrinin təmiri/yenidən tikilməsi və su təminatı, sanitar-gigiyena obyektlərinin yaxşılaşdırılması üçün 10 000-dən çox uşağın faydalandığı 50-yə yaxın layihə icra olundu.

Əhalinin həssas təbəqələrinə dəstəyə kompleks yanaşmamızın bir hissəsi olaraq, biz mütəmadi olaraq elektrik şəbəkələrinin yenidən quraşdırılması üçün dövlət idarələrinə materiallar, ehtiyat hissələri və avadanlıq ianə edirdik.

Bizim yenilikçi pilot layihələrini və yerli qurumlarla tərəfdaşlığı ehtiva edən multidisiplinar yanaşmamız münaqişədən zərər çəkmiş ərazilərdə su təminatının, keyfiyyətinin və vacib infrastrukturun yaxşılaşdırılmasına əhəmiyyətli töhfə vermişdir.

## TİBBİ XİDMƏTLƏRİN YAXŞILAŞDIRILMASI

2020 -2021-ci illərdə BQXK penitensiar sistemdə psixi sağlamlıq xidmətini yaxşılaşdırmaq və saxlama yerlərinin tibbi heyətinin məhbuslarda, xüsusən də müəssisəyə qəbul zamanı, psixi problemləri aşkar etmək və tədbir görmək qabiliyyətlərini artırmaq məqsədilə Azərbaycanın baş səhiyyə orqanı ilə tərəfdaşlıq etmişdir. BQXK-nın psixoloqu psixi sağlamlıq problemlərini erkən aşkar etmək və məhbuslara lazımi psixoloji dəstəyi göstərmək üçün praktiki bacarıqların artırılması məqsədilə saxlama yerlərinin əməkdaşları ilə birlikdə işləmişdir.

Saxlama yerlərindən başqa, 2016-cı ildən başlayaraq BQXK-nın səhiyyə sahəsindəki fəaliyyətləri daha geniş icma dəstəyini əhatə edirdi. 6000-dən çox insan, o cümlədən tibb işçiləri, könüllülər və münaqişənin təsirinə məruz qalmış bölgələrin sakinləri AzQAC-ın həyata keçirdiyi ilk yardım təlimi aldı. Biz səhiyyə və müdafiə nazirlikləri ilə tərəfdaşlıq çərçivəsində hərbi və mülki cərrahlar üçün səhra cərrahiyyəsi üzrə ixtisasartırma təlimi təşkil etdik. Bu sessiyalar münaqişə ilə əlaqədar yaralara qulluq zamanı cərrahiyyə bacarıqlarını artırmaq üçün BQXK-nın dəvət etdiyi beynəlxalq ekspertlər tərəfindən keçilirdi.

BQXK AzQAC və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) ilə birlikdə fövqəladə hal işçiləri və cəbhə xəttində fəaliyyət göstərən tibb işçiləri üçün əlavə təlim təşkil etdi. Bura münaqişədən zərər çəkmiş rayonlarda 1000-dən çox ilk yardım dəstinin paylanması və travma zamanı yardıma dəstək daxil idi. Doqquz kənd həkim məntəqəsinin təmir edilməsi və tibbi avadanlıqla təmin edilməsi, əlavə olaraq PSPSD üzrə təlim yerli səhiyyə sistemlərinə müstəqil şəkildə keyfiyyətli xidmət göstərməyə davam etməkdə kömək etdi.



Koronavirus pandemiyası zamanı BQXK pandemiyaya qarşı milli cavab tədbirlərinə dəstək məqsədilə fəaliyyətlərini operativ şəkildə uyğunlaşdırdı, AzQAC könüllülərini fərdi mühafizə vasitələri ilə təmin etdi və infeksiyanın qarşısının alınması və nəzarətdə saxlanılması üzrə təlimlər həyata keçirdi. BQXK-nın təmir etdiyi kənd həkim məntəqələrində 5000-dən çox insan müalicə məqsədilə konsultasiyalar aldı və vaksinasiya edildi.

BQXK-nın Azərbaycandakı Səhiyyə şöbəsi 2016-cı ildən başlayaraq AzQAC-ın tərəfdaşlığı ilə İlk yardım və xəstəxanayaqədər təcili yardım Proqramı işləyib hazırladı və həmin proqramı genişləndirdi. Proqramda əsas diqqət könüllülərin hazırlığına, Fövqəladə Mobil Könüllü Dəstələrin yaradılmasına və icmaların prioritet təşkil etdiyi simulyasiyaəsaslı tədbirlərin həyata keçirilməsinə verilirdi. Sonradan proqram genişləndirildi və yerli reallıqlara uyğunlaşdırılmış standartlaşdırılmış və ölçüləbilən yanaşma tətbiq edə bilmək üçün ona təlimatçılar üçün təlimin (ToT) təşkili daxil edildi. BQXK milli qurumlar, minatəmizləyənlər, təcili yardım işçiləri və icma qrupları ilə sıx koordinasiya

şəraitində münaqişədən zərər çəkmiş və ucqar ərazilərdə fövqəladə hallara hazırlığı və cavabvermə potensialını artırdı.

BQXK-nın səhiyyə sahəsində innovasiya, əməkdaşlıq və dayanıqlı yerli potensialartırmaya əsaslanan irsi icmalara fayda verməyə davam edəcək.

## İCMALARIN İQTISADİ TƏHLÜKƏSİZLİYİNİN ARTIRILMASI VƏ DAYANIQLI DOLANIŞIQ MƏNBƏLƏRİNİN YARADILMASI

BQXK 1990-cı illərdə münaqişədən zərər çəkmiş və dolanışıq mənbələrini yenidən qurmağa çalışan icmalarda, ayrı-ayrı şəxslərə və ailələrə dayanıqlı gəlir mənbələri yaratmaqda kömək edirdi. Bu onların fövqəladə yardımdan asılılığının azaldılmasına, münaqişədən zərər çəkmiş icmaların özünü təmin edə bilməsinə və  inkişafayönəlik proqramlara dəstəyə töhfə verdi.

2016 və 2020-ci illərdə baş vermiş döyüş əməliyyatlarından sonra bizim İqtisadi təhlükəsizlik Proqramımızın əsas məqsədi dolanışığa dəstək, infrastrukturun bərpası/təkmilləşdirilməsi, kənd təsərrüfatına yardım və fövqəladə halla əlaqədar yardım oldu. BQXK ailə başçısının əsasən qadın olduğu azgəlirli və ya gəliri olmayan ailələrin dolanışıq qabiliyyətlərini bərpa etmələrinə dəstək üçün təşəbbüslər həyata keçirdi. Bura toxum, gübrə və alətlərin paylanılması, mal-qara verilməsi və ya vaksinasiyası, icma infrastrukturunun təmiri və ya bərpası layihələrində iştiraka görə ödəniş və ya tikiş maşını, un dəyirmanı, kərpic istehsalı maşını və irriqasiya nasosları üçün natural və ya pul formasında yardım kimi mikroiqtisadi təşəbbüslər daxil idi.



2011-ci ildən 2014-cü ilədək əldə etdiyimiz əsas nailiyyətlərə 13 000-dən çox insana dolanışıq vasitələri ilə dəstək göstərilməsi daxil idi. 2016 və 2020-ci illərdə döyüş əməliyyatları zamanı və onlardan sonra bilavasitə zərər çəkmiş icmaların və imkansız ailələrin yararlanması üçün 12 000-dən çox insana irimiqyaslı pul yardımları edildi. Bu proqram çərçivəsində, həmçinin 10 000-ə yaxın insanın faydalandığı bir neçə ictimai infrastruktur layihəsi (ictimai hamamların, uşaq bağçalarının və məktəblərin təmiri) maliyyələşdirildi.

2016 və 2017-ci illərdə torpağın bərpasına dəstək və məhsul artımı üçün təbii və kimyəvi gübrələr payladıq. 2017-ci ildə münaqişədən zərər çəkmiş rayonlara yenilikçi, dəyəri yüksək və suvarılması effektiv olan zəfəran əkinçiliyini gətirdik.

Peşə təlimi və mikroiqtisadi yardım da insanlara əlavə dəstək oldu. 2010 və 2024-cü illər arasında 100-ə yaxın insan bacarıqların artırılması üzrə təlimlərdə iştirak etdi.

Koronavirus pandemiyasına cavab olaraq, biz distant öyrənmə və arıçılıq üzrə qaynar xətt xidmətləri təqdim etdik və mal-qara üçün yem paylamağa davam etdik.

İqtisadi təhlükəsizlik Proqramı müxtəlif təşəbbüslər vasitəsilə cəbhə xətti yaxınlığındakı kənd və qəsəbələrdə yaşayan on minlərlə insanın həyatına müsbət dəyişiklik gətirdi. Maddi müstəqilliyi təmin edərək möhkəmliyi artırmaq və ləyaqəti geri qaytarmaq üçün dayanıqlı dəstəklə təmin etdi.

## MÜNAQIŞƏDƏN ZƏRƏR ÇƏKMİŞ ƏRAZİLƏRDƏ TƏHSİLƏ ŞƏRAİTİN YARADILMASI

BQXK-nın Elm və Təhsil Nazirliyi ilə sıx əməkdaşlıq şəraitində həyata keçirdiyi Təhsil Proqramı təhlükəsiz təhsil mühitini təbliğ etməklə, infrastrukturu təkmilləşdirməklə və ən həssas uşaqlara və ailələrə dəstək olmaqla münaqişədən zərər çəkmiş icmaların həyatına əhəmiyyətli təsir göstərdi.



Təhsildə humanitar dəyərləri təşviq etmək səylərimizin bir hissəsi olaraq, 1995 və 2005-ci illər arasında Təhsil Nazirliyi ilə tərəfdaşlıq çərçivəsində BHH mövzusunda tədris vəsaiti hazırlayaraq orta məktəblərə təqdim etdik. Bu təşəbbüsün məqsədi BHH prinsiplərini milli təhsil proqramına inteqrasiya etmək, şagirdlərə humanizm və insanın həyat və ləyaqətinə hörmət aşılamaq idi. Müəllimlərə bu anlayışları başa düşülən və müvafiq yaşa uyğun şəkildə izah edə bilmələri üçün təlim keçildi və bununla da təhsil sahəsində növbəti illərdə daha da genişləndiriləcək dəstəyin bünövrəsi qoyuldu.

Bu bünövrə üzərində 2019 və 2024-cü illər arasında münaqişədən zərər çəkmiş icmalarda 35 000-dən çox insan 25 məktəbin və altı uşaq bağçasının tikintisindən, təmirindən və infrastrukturun əsaslı bərpasından faydalandı. Bu təhsilin davamlılığını təmin etdi və təhsil üçün layiqli və təhlükəsiz məkanlar yaratdı.

Potensialın artırılması təşəbbüslərinin tərkib hissəsi olaraq, münaqişədən zərər çəkmiş rayonlarda yüzlərlə müəllim və tərbiyəçi ilk yardım, psixososial dəstək və təhlükəsiz davranış praktikalarına dair multidisiplinar təlim proqramlarında iştirak etdi.

2020-ci ildən 2023-cü ilədək 10 000-dən çox insana təhsillərinə dəstək məqsədilə pul yardımı və mal ianə edildi. Bu zaman imkansız ailələrə, o cümlədən 2018 və 2024-cü illər arasında İraq və Suriyadan repatriasiya olunmuş uşaqların dövlət təhsil sistemlərinə inteqrasiyasını təmin etməyə xüsusi diqqət göstərildi.

Proqram 400-dən çox icmanı əhatə etdi, münaqişədən zərər çəkmiş ərazilərdə icmanın iştirakını və dayanıqlılığını artırdı. Bu kompleks yanaşma yerli qurumların hazırlıq və bərpa təşəbbüslərinə sahib çıxmasına təkan verdi.